İMANIN RÜKUNLARI

5

الإيمان باليوم الآخر

AXİRƏT GÜNÜNƏ İMAN

من أركان الإيمان

الإيمان

باليوم الآخر

Şeyx

Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

Tərcümə edən: İlqar Eyvazoğlu

Azərbaycan dili

اللغة الأذرية

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

İMANIN RÜKUNLARI:
AXİRƏT GÜNÜNƏ İMAN

Axirət gününə iman, imanın rükunlarından biridir.

Uca Allah öz kitabında on doqquz yerdə axirət gününə imanı Allaha imanla bir yerdə gətirir. Və O, təkidlə bu günün qaçılmaz bir reallıq olduğunu və bundan qaçış və qurtuluşun olmadığını vurğulayıb.

Uca Allah buyurur:

قال تعالى: ﴿ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَۚ لَيَجۡمَعَنَّكُمۡ إِلَىٰ يَوۡمِ ٱلۡقِيَٰمَةِ لَا رَيۡبَ فِيهِۗ وَمَنۡ أَصۡدَقُ مِنَ ٱللَّهِ حَدِيثٗا ﴿٨٧﴾﴾ [النِّسَاء : ٨٧]

“Özündən başqa ibadətə layiq ilah olmayan Allah, (baş verəcəyinə) şübhə edilməyən Qiyamət günü sizi mütləq(bir yerə) toplayacaqdır. (Verdiyi) xəbərdə Allahdan daha doğru (söyləyən) kim ola bilər?”[1]

Qiyamət gününə imanın mənası: Allahın Öz Kitabında və Rəsulun ﷺ hədislərində bizə bildirdiyi hər şeyin ölümdən sonra gerçəkləşəcəyinə möhkəm iman etmək və bu etiqada uyğun əməl etməkdir.

[1] ən-Nisa surəsi, 87-ci ayə

Qiyamət gününə imana daxildir:

- Qiyamətin əlamətlərinə, ölümə, ölümdən sonra olanlara, qəbir sorğu-sualına, orda olan əzab və nemətlərə iman etmək.
- O gün sura üfürmək kimi şeylərə təfərruatlı iman etmək.
- Ölümdən sonra dirilməyə və ölümdən sonra həyata iman etmək.
- Məxluqların bir yerdə toplanmasına və onların ordakı halına iman etmək.
- Uca Allahla görüşməyə, insanların üzləşməsinə, hesaba çəkilməsinə, məzlumun zalımdan qisas almasına iman etmək.
- Əməl dəftərlərinin üzə çıxacağına, bəzilərinin kitabı sağ əlinə bəzilərinin kitabı isə sol əlinə veriləcəyinə iman etmək.
- Təraziyə, sirat körpüsünə, Peyğəmbərimizin hovuzuna, şəfaətə, cənnət və cəhənnəmə iman etmək.

Əgər bu iman bəndənin qəlbində yaranarsa, böyük bəhrələr verər, bunlar:

- Qiyamət gününün savabını ümid edərək yaxşı işlər görmək və onlara həvəs göstərmək istəyi yaranar.
- Qiyamət gününün əzabından qorxaraq günah işləmək və ya günaha razı olmaq qorxusu yaranar.
- Möminin dünya həyatında itirdiyi nemətlərin axirətdə nemət və mükafatla əvəz olunacağına ümid edərək təsəlli tapması yaranar.

- Axirətə iman möminin ruhuna və hisslərinə hüzur və rahatlıq gətirir, onu narahatlıq, narazılıq və ümidsizlikdən uzaqlaşdırır.
- Axirətə iman əxlaqi dəyərlərin qoruyucusu və dünya ləzzətləri uğrunda çılğın mübarizəyə tələsməyin qarşısında maneədir.

Əgər bəndə bilirsə ki, şübhəsiz o gün gələcək, o zaman qollarını çırmalayıb hazırlaşmalıdır.

Uca Allah buyurur:

قال تعالى: ﴿يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ ٱتَّقُوا۟ ٱللَّهَ وَلْتَنظُرْ نَفْسٌ مَّا قَدَّمَتْ لِغَدٍ ۖ وَٱتَّقُوا۟ ٱللَّهَ ۚ إِنَّ ٱللَّهَ خَبِيرٌۢ بِمَا تَعْمَلُونَ ﴿١٨﴾﴾ [الحَشْر : ١٨]

"Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabahı üçün nə etdiyinə baxsın. Allahdan qorxun! Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır."[2]

---

[2] əl-Həşr surəsi, 18-ci ayə